UOT 75
https://doi.org/10.59849/2311-8482.2025.4.261

**ESMİRA HEYDƏROVA***

# VƏCİHƏ SƏMƏDOVA YARADICILIĞINDA XARİCİ ÖLKƏLƏR MÖVZUSU

*XX əsr Azərbaycan rəssamlarının yaradıcılıq istiqamətlərini zənginləşdirən mühüm amillərdən biri onların xarici ölkələrə səfərləri ilə bağlıdır. Bu səfərlər nəticəsində rəssamlar ezam olunduqları məkanların şəhər mühitini, gündəlik həyat tərzini və təbiət mənzərələrini bədii obrazlar vasitəsilə təsvir edərək milli təsviri sənətin mövzu diapazonunu genişləndirmişlər. Bu baxımdan, XX əsr Azərbaycan təsviri sənətində özünəməxsus yaradıcılıq dəst-xətti ilə seçilən, Əməkdar incəsənət xadimi Vəcihə Səmədovanın yaradıcılığı xüsusi əhəmiyyət kəsb edir.*

*Rəssamın xarici ölkələr mövzusuna həsr etdiyi əsərlər sırasında "Balkan dağları" (1961), "Köhnə Tiflis" (1961), "Bolqarıstan" (1961), "Sofiyada bazar" (1961), "Sozopol. Tutqun gün" (1961), "Tırnovo. Bolqarıstanda dağ kəndi" (1961), "Plovdiv" (1961), "Burqas" (1961), "Türk qadın portreti" (1961) və digər nümunələr xüsusilə diqqəti cəlb edir. Bu tablolarda rəssam müxtəlif janr və texnika imkanlarından istifadə edərək həm məkanın koloritini, həm də oradakı həyatın bədii-estetik xüsusiyyətlərini yüksək peşəkarlıqla ifadə etmişdir. Eyni zamanda bu əsərlərin başlıca bədii xüsusiyyəti parlaq rəng həllinin dinamikliyi, işıq-kölgə münasibətlərinin ifadəliliyi və kompozisiyanın canlı müşahidəyə əsaslanması ilə səciyyələnir.*

***Açar sözlər:*** *Vəcihə Səmədova, yaradıcılıq, xarici ölkələr, mövzu, mənzərə, qadın, rəssam*

## Giriş

XX əsr Azərbaycan rəssamlarının yaradıcılıq diapazonunun genişlənməsində mühüm amillərdən biri onların xarici ölkələrə səfərləri və bu səfərlər zamanı gördükləri şəhər mühiti, gündəlik həyat tərzi və təbiət mənzərələrini bədii şəkildə təsvir etmələridir. Azərbaycan rəssamlarının xarici ölkə xalqlarının həyatını əks etdirən müxtəlif mövzu və janrlı əsərləri "1956-cı ildən başlayaraq Bakıda və ölkəmizin başqa şəhərlərində rəssamlıq sərgilərində göstərilmişdir. 1964-cü ilin fevral ayında Bakıda açılmış "Xarici ölkələr Azərbaycan rəssamlarının əsərlərində" adlı bədii sərgi böyük müvəffəqiyyət qazanmışdır. Sərgidə 30 müəllifin 400-ə qədər əsəri göstərilmişdir" (2, s.147). Bu fakt Azərbaycan təsviri sənətində beynəlxalq mövzulara marağın geniş vüsət aldığını göstərir.

## Əsas təhlil

Xarici ölkələr mövzusuna xüsusi diqqət yetirən rəssamlarımızdan biri də XX əsr Azərbaycan təsviri sənətində özünəməxsus üslubu ilə seçilən, Əməkdar incəsənət xadimi Vəcihə Səmədovadır. Onun yaradıcılığı həm mövzu dairəsinin genişliyi, həm də fərdi bədii-estetik yanaşması ilə diqqəti cəlb edir.

Məlumat üçün qeyd edək ki, Vəcihə Səmədova peşəkar təhsilini əvvəlcə Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda (1940-1944), daha sonra isə Moskvanın görkəmli sənət ocaqlarından biri olan V.İ. Surikov adına Rəssamlıq İnstitutunda (1944-1951) almışdır. Burada o, dövrünün məşhur müəllimləri V.Yakovlev və P.Korininin rəhbərliyi altında təhsil alaraq realist rəssamlıq məktəbinin dərin ənənələrini mənimsəmişdir.

Vəcihə Səmədovanın yaradıcılıq istedadı hələ tələbəlik illərində özünü göstərmiş, o, "Üzeyir Hacıbəyli Azərbaycan bəstəkarlarının arasında" (1951) adlı diplom işi ilə milli musiqi mədəniyyətinə həsr etdiyi mövzunu yüksək ustalıqla əks etdirmiş, bununla da özünün yüksək bədii potensialını təsdiq etmişdir. Belə ki, *"Moskvada təhsil alarkən Vəcihə xanım A.S.Puşkin adına Təsviri Sənət Muzeyində və Tretyakov qalereyasında saxlanılan Avropa və rus incəsənətinin şah əsərləri, keçmişin böyük sənətkarlarının orijinal əsərləri ilə ilk dəfə təmasda olmaq imkanı qazandı. Bütün bunlar hələ tələbə ikən gənc rəssamın istedadının özünü büruzə verməsinə səbəb oldu. Tədris yolu ilə incəsənətdə peşəkar vərdişlərin qazanılması və tanınmış əsərlərin orijinalları ilə əyani tanışlıq, şübhəsiz, Vəcihə*

*Səmədovanın yaradıcılıq üslubunun formalaşmasına müsbət təsir göstərdi. Bu məqam onun erkən işlərində xüsusilə nəzərə çarpır" (1, s.16).*

Vəcihə Səmədovanın çox da uzun sürməyən yaradıcılıq fəaliyyəti mövzuya sərbəst yanaşma bacarığı, kompozisiya quruluşunda mükəmməllik, forma və məzmunun dolğunluğu ilə seçilir. Onun əsərlərində zəngin kolorit həlli, dinamik plastika, işıq-kölgə münasibətlərinin ifadəliliyi, həmçinin ritmik rəng keçidlərinin ahəngdarlığı diqqəti cəlb edir.

Rəssamın süjetli kompozisiyaları sırasında "Mahnı" (1950), "Kür sahilində" (1957), "İmtahandan qabaq" (1958), "Toy ərəfəsində" (1961), "Xəbər gözləyənlər" (1963), "Geoloqlar" (1965) əsərləri xüsusi əhəmiyyət daşıyır. Portret yaradıcılığında isə "Aktrisa L. Bədirbəyli" (1954), "Sosialist Əməyi Qəhrəmanı S. Kərimova" (1957), "Geoloq M. Məmmədbəyli" (1959), "Memar S. Səmədovanın portreti" (1959), "Heykəltəraş H. Abdullayeva" (1964) tabloları sənətkarın fərdi üslubunu nümayiş etdirən nümunələrdir. Bununla yanaşı, "Çuxuryurd ətrafı" (1956), "Göygölün sahilində" (1957), "Toğana kəndi" (1960) kimi mənzərələri və çoxsaylı natürmortları da onun peşəkar sənətkarlığını təsdiqləyən əsərlər sırasındadır.

Sadalanan nümunələrlə yanaşı, Vəcihə Səmədovanın yaradıcılığında xarici ölkələr mövzusu da mühüm yer tutur. Rəssamın həm ölkə daxilində, həm də xarici məkanlarda gördüklərini bədii obrazlara çevirməsi onun mövzu dairəsini daha da genişləndirmişdir. Bu səfərlər çox vaxt həyat yoldaşı, Azərbaycanın görkəmli rəssamı Lətif Feyzullayevlə birgə həyata keçirilmişdir. Bu kontekstdə onların 1961-ci ilin payızında sovet rəssamlarından ibarət nümayəndə heyəti ilə birgə Bolqarıstan Xalq Respublikasına bir aylıq səfəri xüsusi əhəmiyyət kəsb edir.

Vəcihə Səmədova Bolqarıstana ezamiyyəti zamanı bu ölkənin müxtəlif bölgələrini – Plovdiv, Sofiya, Tırnovo, Burqas, Sozopol kimi şəhərləri gəzmiş, xüsusilə dağlıq kənd və şəhər mənzərələrinə diqqət yetirmişdir. O, bolqar xalqının gündəlik məişətini, onların həyat tərzinə xas səciyyəvi cizgiləri, eləcə də adi insanların tipajlarını böyük müşahidə mədəniyyəti və peşəkar fırça ustalığı ilə bədii obrazlara çevirmişdir. Bu mənada rəssamın "Bolqarıstan" (1961), "Plovdiv" (1961), "Sofiyada bazar" (1961), "Tırnovo" (1961), "Tırnovo. Bolqarıstanda dağ kəndi" (1961), "Tırnovoya gedən yolda" (1961), "Qayada evlər. Tırnovo" (1961), "Sozopol" (1961), "Sozopol. Tutqun gün" (1961), "Burqas" (1961), "Damlar" (1961), "Bolqar motivi" (1961), "Bolqarıstan. Nümayiş" (1961), "Qonşular. Sozopol" (1961), "Bolqar qadını" (1961), "Qoca bolqar qadınları" (1961) və digər əsərləri xüsusi qeyd olunmalıdır. Bu silsilə tablolar həm janr müxtəlifliyi, həm də kompozisiya və kolorit zənginliyi ilə seçilir.

Vəcihə Səmədovanın Bolqarıstana yaradıcılıq ezamiyyəti onun yaradıcılığında yeni istiqamətin formalaşmasına təkan vermişdir. Qısa zaman kəsiyində ərsəyə gətirdiyi çoxsaylı etüd və eskizlər müxtəlif texnika və ifadə vasitələri ilə işlənərək silsilə əsərlərə çevrilmiş, bununla da rəssamın bədii yaradıcılıq irsini əhəmiyyətli dərəcədə zənginləşdirmişdir. "Vəcihə Səmədova canlı naturanın xüsusiyyətlərini real boyalarla əks etdirən müşahidəçi rəssam idi. Onun rənglərində dekorativlik duyulur. Məsələn, "Sofiyada bazar" (1961) əsərində adamların milli geyimləri, onları əhatə edən əşya, rəngarəng keramik məmulat qismindən irili-xırdalı küpələr, dolçalar və başqa qablar rənglərinə görə təsirli və cazibədardır. "Türk qadını" və "Qoca qadınlar" etüdlərində insanın psixoloji aləmi, milli kolorit çox təbii çıxmışdır" (2, s.153).

1961-ci ildə Bolqarıstan təəssüratları əsasında ərsəyə gətirilən əsərlər rəng həlli, təsvir edilən naturaya yanaşma tərzi və ifa xüsusiyyətləri baxımından Vəcihə Səmədovanın yaradıcılığında xüsusi mərhələni təşkil edir. Bu dövr rəssamın yaradıcılığında olduqca maraqlı və parlaq bir səhifədir. Sözügedən nüanslar onun artıq formalaşmış təsvir üslubunda və yaradıcılıq manerasında təkamül xarakterli növbəti addım olmuşdur.

Vəcihə Səmədovanın Bolqarıstana ezamiyyəti zamanı yaratdığı əsərləri əvvəlki əsərlərindən fərqləndirən əsas cəhət onların kolorit dolğunluğu və parlaq rəng çalarları ilə seçilməsidir. Rəssam bu tablolarında rəng ahəngdarlığını yalnız təsviri vasitə kimi deyil, emosional məzmunu gücləndirən bədii element kimi istifadə etmişdir.

Bolqarıstan səfəri zamanı daha çox şəhər məkanına və təbiət mənzərələrinə müraciət edən, gördüklərini naturadan fırçaya alan, adi insanların gündəlik məişətini müşahidə edən rəssam, zaman-zaman əsərlərində ifadəli, bəzən də nağılvari təsir bağışlayan bir bədii aləm yaratmağa nail olmuşdur. Bu, bir tərəfdən onun şəxsi daxili dünyagörüşü və yaradıcılıq axtarışlarının ifadəsi, digər tərəfdən isə rəssamın fərdi üslubunun zənginləşməsi idi. Odur ki, Bolqarıstan səfəri Vəcihə Səmədovanın yaradıcılığında bədii keyfiyyət baxımından dönüş nöqtəsi olmuş, bu təəssüratlar əsasında bir-birindən fərqli forma və biçimdə, zəngin koloritə malik əsərlər yaranmışdır. “Bu əsərlərdə evlərin al-qırmızı kirəmit damlarında, ağappaq kilsələrin divarlarında, isti oxra rənginə boyanmış dar küçələrin səkilərində oynayan cənub günəşini sənətkarın hərisliklə vücuduna hopdurduğunu görürük. O, bazarda rəngarəng geyimli camaatın içərisində gəzintidən və bolqar qadınların özünəməxsus zahiri görünüşündən necə də zövq alır. Göründüyü kimi sənətkar bu dəqiqələrində çox xoşbəxtdir, həyat onun üzünə gülür, o isə cavab olaraq sevincini bildirir, qəlbi isə çalıb-oxuyur” (5, s.53).

Vəcihə Səmədovanın bədii ifadə zənginliyi ilə seçilən Bolqarıstan silsiləsi müxtəlif janr və motivlərin sintezi ilə səciyyələnir. Bu silsilədə Bolqarıstan motivləri (“Bolqar motivi”), məişət səhnələri (“Sofiyada bazar”, “Qonşular. Sozopol”, “Bolqarıstan. Nümayiş”), Bolqar tipləri və obrazları (“Bolqar qadını”, “Qoca bolqar qadınları”), həmçinin tarixi memarlıq abidələri və şəhər görüntülərini əks etdirən mənzərələr (“Bolqarıstan”, “Plovdiv”, “Tırnovo”, “Tırnovo. Bolqarıstanda dağ kəndi”, “Tırnovoya gedən yolda”, “Qayada evlər. Tırnovo”, “Sozopol”, “Sozopol. Tutqun gün”, “Burqas”, “Damlar” və s.) xüsusi bədii dəyərə malikdir.

Bu əsərlərdə diqqəti cəlb edən əsas xüsusiyyət işığın dekorativ ifadəliliyidir. İşıq, rəssamın kompozisiyalarında yalnız təsvirin aydınlaşdırıcı elementi deyil, eyni zamanda forma və strukturun, həcm və plastikanın əsas formalaşdırıcısıdır. Kətanın fakturasında müşahidə olunan ritmik quruluş, rəng qatılığı və plastika emosional ifadəliliyi artıraraq tamaşaçıya güclü estetik təsir bağışlayır.

Vəcihə Səmədovanın Bolqarıstana ezamiyyəti nəticəsində yaratdığı əsərlər 1962-ci ildə müstəqil silsilə şəklində Azərbaycan SSR Mədəniyyət Nazirliyinin Rəssamlıq Salonunda təşkil olunmuş hesabat sərgisində uğurla nümayiş etdirilmişdir. Sonrakı illərdə isə bu silsilə əsərlər Moskvada keçirilən “Xarici ölkələr Azərbaycan rəssamlarının yaradıcılığında” adlı sərgidə tamaşaçıların diqqətinə təqdim olunmuşdur. Hərçənd sərgidə nümayiş etdirilən əsərlərin əsas mövzusu xarici ölkələr idi, lakin Vəcihə Səmədova Qərb rəssamlıq ənənələrinin təsiri fonunda özünün milli yaradıcılıq ənənələrinə əsaslanan bədii üslubunu qoruyub saxlaya bilmişdir. Məhz bu səbəbdən onun əsərlərinin böyük bir qismi milli incəsənətimizin təmsilçisi kimi xarici sərgi salonlarında dəfələrlə nümayiş etdirilmiş, bu gün isə Azərbaycan incəsənətinin qızıl fonduna daxil olaraq Azərbaycan Milli İncəsənət Muzeyinin ekspozisiyasını bəzəməkdədir.

Vəcihə Səmədovanın yaradıcılığında yalnız Bolqarıstana deyil, digər xarici ölkələrə həsr edilmiş əsərlər də mühüm yer tutur. Bu əsərlər kompozisiya quruluşunun məharətli işlənməsi, rəng həllinin ifadəliliyi və özünəməxsus bədii təsir gücü ilə seçilir. “Köhnə Tiflis” (1961), “Balkan dağları” (1961), “Türk qadın portreti” (1961) kimi tablolar onun bu istiqamətdəki axtarışlarının parlaq nümunələridir. Bolqarıstan silsiləsində olduğu kimi, bu əsərlərdə də rəssam təsvir etdiyi məkan və xalqların ən səciyyəvi cizgilərini ustalıqla bədii görüntüyə gətirmişdir. O, xarici mühitdən aldığı təəssüratları yalnız realist təsvirlə kifayətlənməyib, onları axıcı plastika, şərti-dekorativ rəng qatları və lirik-poetik ahəng ilə mənalandıraraq öz fərdi üslubunu qoruyub saxlamışdır.

**Nəticə** etibarilə qeyd edək ki, Vəcihə Səmədova xarici ölkələr mövzusuna həsr etdiyi rəngkarlıq və qrafika əsərləri ilə Azərbaycanın milli bədii irsini xeyli zənginləşdirmişdir. Onun çox da uzun sürməyən, lakin yüksək sənətkarlıq nümayiş etdirən yaradıcılığı rəssama ədəbi-mədəni mühitdə layiqli qiymət qazandırmışdır. Buna görə ona "Azərbaycan SSR Əməkdar incəsənət xadimi" fəxri adı verilmiş, 1965-ci ildə dünyasını dəyişdikdən sonra isə xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Rəssamlar İttifaqının sərgi salonuna onun adı verilmişdir.

## ƏDƏBİYYAT


1. Əfəndiyev T. Vəcihə Səmədova. Rəngkarlıq və qrafika. "Sərvət" toplusu. Bakı: Şərq-Qərb, 2013, 104 s.
2. Həbibov N. Azərbaycan sovet rəssamlığı. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1966, 188 s.
3. Həbibov N. Rəssamlıqdan söhbət. Bakı: Uşaqgəncnəşr, 1961, 112 s.
4. Kərimov K.C., Əfəndiyev R.S., Rzayev N.İ., Həbibov N.D. Azərbaycan incəsənəti. Monoqrafiya. Bakı: İşıq, 1992, 344 s.
5. Məlikova Ş. Vəcihə Səmədova. Rəngkarlıq və qrafika. "Xalq əmanəti", Bakı: "Xalq Bank", 2015, 248 s.
6. Nəcəfov M. Vəcihə Səmədova. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1966, 46 s.



***Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dissertantı**
***E-mail: hdeydarova03@gmail.com***



**Esmira Heydarova**


## THE THEME OF FOREIGN COUNTRIES IN THE CREATIVE WORK OF VAJIHA SAMADOVA


One of the important factors that enriched the creative directions of Azerbaijani painters in the 20th century was their travels abroad. As a result of these journeys, artists depicted the urban environment, everyday life, and landscapes of the places they visited through artistic imagery, thereby expanding the thematic range of national visual art. In this regard, the creative legacy of Honored Art Worker Vajiha Samadova, distinguished by her unique artistic style, holds special significance in Azerbaijani art of the 20th century.

Among her works dedicated to foreign themes, particular attention is drawn to "Balkan Mountains" (1961), "Old Tbilisi" (1961), "Bulgaria" (1961), "Bazaar in Sofia" (1961), "Sozopol. Cloudy Day" (1961), "Tarnovo. Mountain Village in Bulgaria" (1961), "Plovdiv" (1961), "Burgas" (1961), "Portrait of a Turkish Woman" (1961) and others. In these paintings, the artist skillfully employed various genres and techniques to capture both the local color of the setting and the artistic-aesthetic features of life in those places. The main artistic qualities of these works are characterized by the dynamism of color solutions, the expressiveness of light–shadow relations, and the composition based on direct observation.



**Keywords:** *Vajiha Samadova, creativity, foreign countries, theme, landscape, woman, painter*

**Эсмира Гейдарова**

## ТЕМА ЗАРУБЕЖНЫХ СТРАН В ТВОРЧЕСТВЕ ВАДЖИИ САМЕДОВОЙ

Одним из важных факторов, обогативших направления творчества азербайджанских художников XX века, стали их поездки за границу. В результате этих поездок художники изображали городскую среду, повседневный быт и пейзажи стран пребывания, тем самым расширяя тематический диапазон национального изобразительного искусства. В этом контексте особое значение имеет творчество Заслуженного деятеля искусств Веджии Самедовой, выделяющееся в искусстве XX века своим самобытным стилем.

Среди произведений художницы, посвящённых зарубежным темам, особенно выделяются такие работы, как «Балканские горы» (1961), «Старый Тифлис» (1961), «Болгария» (1961), «Базар в Софии» (1961), «Созополь. Пасмурный день» (1961), «Тырново. Горная деревня в Болгарии» (1961), «Пловдив» (1961), «Бургас» (1961), «Портрет турчанки» (1961) и др. В этих полотнах художница, используя различные жанры и техники, с высоким мастерством отразила как колорит пространства, так и художественно-эстетические особенности местной жизни. Главными художественными качествами данных произведений являются динамичность цветового решения, выразительность светотеневых отношений и построение композиции на основе живого наблюдения.

**Ключевые слова:** *Веджия Самедова, творчество, зарубежные страны, тема, пейзаж, женщина, художник*

*AMEA-nın müxbir üzvü Cəfər Qiyasi tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 11.10.2025**
**Son daxilolma tarixi:08.11.2025**